# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədrini təbrik edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşa təbrik məktubu ünvanlayıb. Məktubda spiker Sahibə Qafarova Numan Kurtulmuşu Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri vəzifəsinə seçilməsi münasibətilə öz adından və Milli Məclisin deputatları adından təbrik edərək ona ən xoş arzularını çatdırıb.**




Məktubda deyilir: "Bir millət, iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasındakı strateji müttəfiqlik bütün sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələr sahəsində də uğurla inkişaf edir".

Milli Məclisin Sədri Numan Kurtulmuşu ölkəmizə rəsmi səfərə dəvət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, həmin gün Sahibə Qafarovanın Numan Kurtulmuşla telefon danışığı da olub. Telefon danışığı zamanı Milli Məclisin spikeri TBMM Sədrini bir daha təbrik edərək xalqlarımızın mənafeyi və rifahı naminə gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Türkiyə Böyük Millət Məclisinin Sədri təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirib, TBMM ilə Milli Məclis arasında əlaqələrin bundan sonra da inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib.

***"Azərbaycan"***

---

Azərbaycan. - 2023.-9 iyun.- S.3.